# Şirvan şəhərində ulu öndərin anım günü ilə əlaqədar ümumşəhər tədbiri keçirilib

***12 dekabr 2021-ci il tarixdə, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun, Milli Məclisin deputatı İltizam Yusifovun, şura üzvlərinin, hüquq-mühafizə orqanlarının, ictimai-siyasi qurumların rəhbərlərinin iştirakı ilə keçirilən ümumşəhər tədbiri ulu öndərin şəhərin Heydər Əliyev Meydanında ucalan abidəsini ziyarətlə başlayıb. Abidə önünə gül dəstələri düzülüb, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Xatirəsinə dərin ehtiram ifadə edilib.***



Sonra şəhərin Heydər Əliyev Mərkəzində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin mühüm məqamlarını əks etdirən eksponatlar, bu böyük dövlət xadiminin Azərbaycan xalqı və dövləti qarşısında tarixi xidmətləri barədə geniş məlumatlar verilib. Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tədbir iştirakçıları qarşısında çıxış edərək ulu öndərin respublikaya rəhbərliyi dövründə ölkə iqtisadiyyatını hərtərəfli inkişaf etdirdiyini, Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin iqtisadi, siyasi və hüquqi əsaslarını yaratdığını bildirib.

Natiq ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin praqmatik və müdrik siyasəti ilə ölkəmizin yeni, müasir inkişaf dövrünü yaşadığını bildirib. Tədbir iştirakçılarını ulu öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək naminə Prezident cənab İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırıb. Ulu öndər Heydər Əliyevin Azərbaycanı işıqlı gələcəyə aparan siyasətinin bundan sonra da uğurla davam etdiriləcəyini qeyd edib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının Şirvan şəhər Təşkilatının sədr əvəzi Paşa Nəbiyev, Milli Məclisin deputatı İltizam Yusifov ulu öndər Heydər Əliyevin Şirvan şəhərinə göstərdiyi diqqət və qayğıdan, şirvanlıların da həmişə ulu öndər Heydər Əliyevə böyük dəstək göstərdiklərindən danışıblar. Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən “Millət atası” sənədli filmə tamaşa ediblər.

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbirlərinin davamı olaraq şəhərin Mədəniyyət Mərkəzində Xalq şairi Zəlimxan Yaqubun “Böyük ömrün dastanı” poeması əsasında Şuşa Dövlət Musiqili Dram Teatrının və şəhər icra hakimiyyətinin birgə təşkilatçılığı ilə yaradıcı kollektivin ulu öndərə həsr etdiyi ədəbi-bədii kompozisiyanın təqdimat mərasimi keçirilib.

Sonra Şuşa Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivi “Böyük ömrün dastanı” poeması əsasında hazırladıqları ədəbi-bədii kompozisiyanı tamaşaçılara təqdim edib. Sonda Şuşa Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivi ilə xatirə şəkli çəkilib.

***Səməd HÜSEYNOĞLU,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti.- 2021.- 14 dekabr.- S.9.